# Əbədiyaşar lider

**Böyük şəxsiyyətləri tarix, zaman özü yetişdirir və onlar öz əməlləri ilə tarixi yaradır, zənginləşdirir və dəyişdirirlər. Belə görkəmli şəxsiyyətlərdən biri də Heydər Əliyevdir. Azərbaycanın müasir tarixinin bütöv bir mərhələsi onun adı ilə bağlıdır. Heydər Əliyevin parlaq siyasi zəkası sayəsində iki əsrin, iki minilliyin qovuşuğunda Azərbaycan öz milli-mənəvi dəyərlərini qoruyaraq üçüncü minilliyə inamla qədəm qoymuşdur.**

Ümummilli Liderimiz Heydər Əliyev öz ali liderlik keyfiyyətləri ilə dünyanın siyasi elitasının ən uca zirvəsində qərarlaşan nəhəng şəxsiyyət idi. Ümummilli lider Azərbaycanı zamanın sərt sınaqlarından çıxarmış, ona həm bölgədə, həm də dünyada layiqli yer qazandırmışdır. Heydər Əliyev müasir dünyanın ən aktual çağırışlarına cavab vermək bacarığı ilə zəmanəmizin tanınmış siyasi xadimləri sırasında öz layiqli yerini tutmuş, keşməkeşli keçdiyi həyat yolunda hər zaman xalqını, Vətənini düşünmüşdür. Dahi rəhbərin ürəyi daim Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, doğma xalqının xoşbəxtliyi üçün çırpınmışdır. Ulu Öndər bir dövlət başçısı kimi Azərbaycanın ən çətin anlarında onu xilas etmək üçün misilsiz fədakarlıqlar göstərmiş, ölkəsini bəlalardan qurtarmağı bacarmışdır.

Onun formalaşdırdığı və inkişaf etdirdiyi azərbaycançılıq fəlsəfəsi Azərbaycanın müasir dünyada xüsusi yerini müəyyən etmiş, milli dövlətçiliyimizin bünövrəsini qoyaraq dünya azərbaycanlılarının monolit qüvvəyə çevrilməsi üçün möhkəm zəmin yaratmışdır. Heydər Əliyev öz parlaq siyasi zəkası və istedadı sayəsində yeni Azərbaycanı, onun bugünkü gerçəkliklərini yaratmış və gələcəyə aparan yollarını müəyyən etmişdir. Məhz buna görə də Azərbaycan tarixinin 1969-cu ildən sonrakı dövrü Heydər Əliyevin adı ilə sıx bağlıdır və tariximizə Heydər Əliyev dövrü kimi həkk olunmuşdur.

Heydər Əliyev 1969-1982-ci illərdə Azərbaycana rəhbərlik etdiyi dövrdə xalqını ideoloji sistemin keçmiş buxovlarından xilas edərək, milli dövlətçilik ideyasının böyük hərəkətverici qüvvəyə çevrilməsi üçün münbit zəmin yaratmışdır.

Heydər Əliyevin 1993-cü ildə Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında dönüş yaranmış, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlanmışdır. Heydər Əliyevin həyata keçirdiyi təxirəsalınmaz tədbirlərin nəticəsi kimi bir tərəfdən Milli Ordunun formalaşdırılması, Azərbaycanın milli mənafeyini qorumağa qadir silahlı qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atmış, digər tərəfdən atəşkəsə nail olmaq üçün böyük siyasi və diplomatik vasitələr işə salınmış, bunun da nəticəsində 1994-cü ilin mayında ölkəmiz üçün həyati əhəmiyyət kəsb edən atəşkəsə nail olunmuşdur.

Azərbaycan daxilində yaranmış nisbi sabitlikdən və beynəlxalq aləmdə ölkəmizə artan inam və maraqdan istifadə edərək, 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" adlandırılan ilk neft müqaviləsinin imzalanması və onun gerçəkləşdirilməsi Heydər Əliyev tərəfindən işlənib hazırlanmış və müstəqil Azərbaycanın iqtisadi inkişaf strategiyasının parlaq təzahürüdür.

Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə başlıca qayəsini müstəqillik, azərbaycançılıq, dövlətçilik, ədalətlilik, demokratiya, milli tərəqqi, dünyəvilik kimi ümumbəşəri dəyərlər təşkil edən yeni bir ideologiyanın əsası qoyulmuşdur.

Bu gün Ulu Öndərin müəyyənləşdirdiyi strateji inkişaf kursunu uğurla reallaşdıran cənab İlham Əliyev ölkəyə rəhbərliyin leytmotivini sistemlilik, iqtisadi inkişafda dinamizm, beynəlxalq əməkdaşlıqda qarşılıqlı maraqlara əsaslanmaq, milli mənafeləri qorumaq, xalqın rifahını yüksəltmək kimi mühüm vəzifələr təşkil edir.

**Ramiz POLUXOV,**
**Azərbaycan Tibb Universiteti Tədris-Cərrahiyyə Klinikasının baş həkimi, tibb elmləri doktoru, professor.**